**Birinci Qarabağ müharibəsi veteranı, Azərbaycan Rəssamlar İttifaqının və Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsinin üzvü, "Fəxri mədəniyyət işçisi", "Fəxri kooperator" adlarına layiq görülmüş tanınmış ziyalı, peşəkar inşaatçı Cəlil Tarıverdiyev 1942-ci ildə Neftçala rayonunun Xıllı kəndində anadan olmuşdur. O, 1961-cı ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş, 1966-cı ildə institutu inşaatçı-mühəndis ixtisası üzrə bitirmişdir. Bakı Dəmir-Beton Trestinin müəssisələrində usta, sex müdiri, baş konstruktor, baş mühəndis vəzifələrində çalışmış, 1972-ci ildə həmin trestin 2 nömrəli dəmir-beton zavodunun direktoru təyin edilmişdir. Yeniliklərə böyük həvəs göstərən gənc mütəxəssis Moskvada SSRİ-nin Ali mühəndislik kurslarında dəmir-beton istehsalı, xüsusən də armaturun vanna qaynağı sahəsində püxtələşmiş və 2 ildən sonra Bakı Baş Tikinti İdarəsi nəzdində tikinti sahələri üzrə 10-dan artıq müəssisəni birləşdirən İstehsalat Müəssisələri İdarəsinin rəisi təyin edilmişdir. Cəlil Tarıverdiyev müəssisə rəhbəri olmaqla bərabər, bir neçə ixtiranın da müəllifi idi. Belə ki, o zamanlar Bakıda inşa edilən çoxmərtəbəli binaların və iri tikililərin əsasını təşkil edən dəmir-beton konstruksiyalar dövrün ən müasir üsullarından istifadə edilərək məhz bu idarənin istehsalat müəssisələrində hazırlanırdı. "Gülüstan" və "Əl Oyunları" saraylarının, dövlət rəhbərləri üçün "Qonaq Evi"nin inşasında bu idarənin müəssisələrində layhələndirilmiş, istehsal edilmiş 9 metrlik dəmir-beton tavan plitələrindən istifadə edilmişdir.**



# Bİr ömrün tarİxçəsİ





Cəlil Tarıverdiyev 1980-ci ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə Kənd Təsərrüfatı Texnikası Komitəsinin sədr müavini vəzifəsinə təyin olunmuş və respublikanın rayonlarında kənd təsərrüfatı texnikasının təmiri, pambıq, çörək zavodlarının və sosial obyektlərin layihələndirilməsi, inşası ilə məşğul olmağa başlamışdır. Belə obyektlərdən biri də Kənd Təsərrüfatı Texnikası Komitəsinin yeni binasının inşası idi.

Cəlil Tarıverdiyev peşəkar inşaatçı olmaqla yanaşı, paytaxtın ictimai həyatında da fəal iştirak etmiş, iki çağırış - 1978 və 1982-ci illərdə Xətai rayonu üzrə deputat seçilmişdi. Onun şəxsi xüsusiyyətləri, fədakarlığı, çalışmaq, çətinliklərə sinə gərmək və gərgin işləmək bacarığı səmərəli və uğurlu fəaliyyətini şərtləndirən əsas amillər idi.

1986-cı ildə respublikanın kənd təsərrüfatı ilə bağlı 11 nazirlik və komitəni birləşdirən Dövlət Aqrar-Sənaye Komitəsi yaradılmışdır. Komitənin ən iri qurumlarından birinin - Kapital Tikinti və Rekonstruksiya Baş İdarəsinin rəisi təyin olunan Cəlil Tarıverdiyev bu vəzifədə də əvvəlki dövrlərdə olduğu kimi, işgüzar rəhbər, peşəkar inşaatçı, yüksək ixtisaslı mütəxəssis, sadə və səmimi insan kimi tanınmışdır. Cəlil Tarıverdiyev çalışdığı bütün sahələrdə böyük fəallığ göstərmiş, ulu öndər Heydər Əliyevin Naxçıvan Ali Məclisinin sədri olduğu dövrdə onun bütün tapşırıqlarını böyük səylə yerinə yetirmişdir. O, 1989-cu ildə "Azərittifaq"ın İdarə Heyətinin sədr müavini seçilmiş və dərhal Qarabağa ezam olunmuşdu. 1989-1996-cı illərdə münaqişə zonasında "Azərittifaq"ın İdarə Heyətinin sədr müavini qismində Qarabağın Müdafiə Qərargahının üzvü olaraq əvvəlcə ilkin tələbat obyektlərinin (çörək zavodu, ərzaq mağazaları) tikintisi, hərbi şərait gərginləşəndən sonra isə səngər və müdafiə qurğularının inşası, erməni hərbi dəstələri tərəfindən blokadaya alınmış ərazilərdə dinc əhalinin maddi-texniki təminatı, hərbi münaqişə zonasından çıxarılması və müvəqqəti yerləşdirilməsi məsələləri ilə məşğul olmuşdur. Cəlil Tarıverdiyev Şuşa, Xankəndi, Xocalı, Ağdam şəhərlərində və Zəngilan, Laçın, Kəlbəcər, Cəbrayıl, Qubadlı, Füzuli rayonlarında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamlarından, eləcə də "Azərittifaq"ın İdarə Heyətinin qərarlarından irəli gələn məsələləri icra etmişdir.

Münaqişə zonasında yaşamış azərbaycanlılar bu gün də Cəlil Tarıverdiyevi fədakarlıqla üzləşmiş vətəndaşlarımıza böyük həssaslıqla yanaşan, onları vəziyyətdən çıxarmaq üçün əlindən gələni edən fədakar insan kimi xatırlayırlar. Bunu bir çox sənədli faktlar, o cümlədən Xocalı rayonunun əhalisi adından Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Ş.Ş.Usubovun Cəlil Tarıvediyevə 70 illik yubileyi ilə əlaqədar ünvanlandığı məktub da sübut edir: *"Hörmətli Cəlil müəllim. Mənfur erməni işğalçıları tərəfindən Azərbaycanın əzəli torpağı olan Qarabağın Ermənistana birləşdirilməsi ideyası altında başlanmış hadisələr zamanı orada yaşayan azərbaycanlılara daima qayğı və diqqətlə yanaşan, onların mövcud problemlərinin həllinə çalışan və bir çox hallarda öz şəxsi həyatını bu yolda təhlükə altına qoyan azsaylı şəxslərdən biri məhz Siz olmuşsunuz. Qarabağda yaşamış hər bir azərbaycanlı Sizi olduqca hörmətlə anır və yad edir".*

2001-2003-cü illərdə Cəlil Tarıverdiyev Ulu Öndər Heydər Əliyevin ipəkçiliyin inkişafına dair tövsiyələrinə uyğun olaraq qədim İpək Yolunun Azərbaycan ərazisi boyunca əsas ipəkçilik məskənlərində kəlağayı sənətinin bərpası ilə məşğul olmuşdur. Qəbələnin kəndlərində baramanın yetişdirilməsi ilə yanaşı, Basqalda və Şəkidə İpək Mərkəzləri yaradılmışdır. İsmayıllı rayonu və Şəki şəhərinin yerli icra hakimiyyəti orqanlarının dəstəyi ilə cəmi bir il ərzində Azərbaycanda qədim kəlağayı sənəti dirçəldilmiş, həm texnoloji, həm bədii xüsusiyyətləri saxlanmaqla kəlağayı istehsalına başlanmışdır. Basqalda Cəlil Tarıverdiyev öz vəsaiti hesabına Azərbaycanda və MDB məkanında yeqanə olan "Kəlağayı" İpək Muzeyinin yaradılmasına nail olmuşdu. Bu gün muzeyə gələn yerli və əcnəbi turistlər burada kəlağayı haqqında geniş və əyani məlumat alır, kəlağayıların hazırlanma prosesini müşahidə edirlər.

Cəlil Tarıverdiyevin səyləri nəticəsində 2004-cü ildə ilk dəfə Azərbaycanda kəlağayı sərgisi keçirilmişdir. Onun təşkilatçılığı ilə Basqal İpək Mərkəzində hazırlanmış kəlağayılar həm Bakıda, həm də müxtəlif ölkələrdə - Gürcüstan, Rusiya, Böyük Britaniya, Türkiyə, ABŞ, Bolqarıstan, Özbəkistan, Yaponiya, Avstriya və Polşada keçirilən "Kəlağayı" sərgilərində nümayiş etdirilmiş və təşkil olunmuş ustad dərslərində onların naxışlanması qaydaları göstərilmişdir. Hər il Bakıda və İsmayıllıda təşkil edilən Novruz bayramı yarmarkalarında kəlağayı geniş təqdim olunur.

Cəlil Tarıverdiyev kəlağayı sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi üçün böyük səy göstərmişdir.



Onun rəhbərliyi ilə kəlağayı sənətinin bərpası işlərinin, o cümlədən kəlağayı ilə bağlı araşdırmaların nəticələri barədə sənəd hazırlanaraq Mədəniyyət Nazirliyinə təqdim olunmuşdur. UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 2014-cü ildə keçirilmiş 9-cu sessiyasında "Kəlağayı sənəti və onun simvolizmi, ipək qadın baş örtüklərinin hazırlanması və istifadəsi" adlı qərar qəbul edilmiş və kəlağayı UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə reprezentativ siyahısına daxil edilmişdir. Görülmüş işlər, toplanmış məlumat əsasında kəlağayı konsepsiyası formalaşmış, ona müəlliflik hüququ verilmiş və 2016-cı ildə eyniadlı kitab nəfis şəkildə nəşr edilmişdir.

Cəlil Tarıverdiyev qədim kəlağayı sənətinin bilicisi idi. Azərbaycanın milli-mədəni irsinin qorunmasında və inkişafında əvəzsiz xidmətlər göstərmiş Cəlil Tarıverdiyevin adı kəlağayı sənətinin inkişaf tarixinə əbədi həkk olunmuşdur. O, kəlağayı xalq sənətinin bərpası və bu tətbiqi incəsənət növünün qədim üslubunun qorunub saxlanması ilə yanaşı, müasirləşdirilməsi üçün ciddi səy göstərmiş, yaddaşlardan silinməyəcək işlər görmüşdür.

Əsl ziyalı, alicənab şəxsiyyət, sədaqətli dost, yüksək intellektə malik istedadlı təşkilatçı, işgüzar insan və peşəkar mütəxəssis Cəlil Cahangir oğlu Tarıverdiyevin xoş xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika.- 2025.- 21 iyun (№126).- S.9.